| “PAŞA Həyat Sığorta” Açıq Səhmdar Cəmiyyətinin<br>2016-cı maliyyə ili üzrə illik idarəetmə hesabatı | |
|---|---|
| *1. emitentin tam və qısaldılmış adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), dövlət qeydiyyatının tarixi və nömrəsi;* | “PAŞA Həyat Sığorta” Açıq Səhmdar Cəmiyyəti<br>“PAŞA Həyat Sığorta” ASC<br>Qeydiyyat tarixi: 24.11.2010-cı il<br>Qeydiyyat nömrəsi və VÖEN: 1401876531 |
| *2. emitentin hüquqi ünvanı və olduğu yer;* | Hüquqi ünvan: Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi 170<br>Faktiki ünvan (olduğu yer): Bakı şəhəri, Nərimanov rayonu, Mayakovski küçəsi 15 |
| *3. emitentin adında dəyişikliklər olduqda, emitentin bütün əvvəlki adları, habelə onların qeydiyyata alındığı tarixlər, emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxsin adı, emitent hüquqi şəxslərin birləşməsi və ya çevrilmə şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxslərin adları;* | Olmayıb |
| *4. emitentin hesabat dövrü ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adı, olduqları yer və qeydiyyatları haqqında məlumatlar;* | Olmayıb |
| 5. emitentin hesabat dövrü *ərzində yaranmış və ya ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı, hüquqi şəxsin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və qüvvədə olma müddəti;* | Yoxdur |
| *6. emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun (emitent daxil olmaqla iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən bir və ya daha artıq törəmə təşkilatı olan qrupdur) adı;* | “PAŞA Holding” Məhdud Məsuliyyətli Cəmiyyət |
| *7. emitentin məşğul olduğu fəaliyyət istiqamətləri;* | Sığorta və təkrarsığorta fəaliyyəti |
| *8. emitent lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və qüvvədə olma müddətləri;* | 11.12.2015-ci il, müddətsiz, sığorta fəaliyyəti<br>06.05.2014-cü il, müddətsiz, təkrarsığorta fəaliyyəti |

| | |
|---|---|
| *9. emitentin təklif etdiyi məhsullar və xidmətlər;* | İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından sığorta<br>Sağalmaz xəstəliklərdən sığorta<br>Həyatın yaşam sığortası<br>Həyatın müddətli sığortası<br>Kredit və ipoteka götürən şəxslərin həyat sığortası |
| *10. emitentin işçilərinin sayı və onun rüblük dinamikası;* | I rüb 30.03.2016 - 151 işçi<br>II rüb 30.06.2016 – 156 işçi<br>III rüb 30.09.2016 – 168 işçi<br>IV rüb 31.12.2016 – 166 işçi |
| *11. emitentin idarəetmə orqanları haqqında məlumat: direktorlar şurası (müşahidə şurası) (olduqda), icra orqanı, audit komitəsi (olduqda), onların üzvlərinin adı, soyadı, atasının adı;* | Direktorlar Şurası:<br>2016-cı ildə:<br>Direktorlar Şurasının sədri – Mir Camal Hafiz oğlu Paşayev;<br>Direktorlar Şurasının üzvü – Vadim Yakovleviç Şneyer;<br>Direktorlar Şurasının üzvü – İbrahim Hüseynqulu oğlu İbrahimov;<br>Direktorlar Şurasının üzvü – Cəlal Ələkbər oğlu Qasımov;<br>Direktorlar Şurasının müstəqil üzvü – Əli Abdulhüseyn oğlu Hüseynov.<br><br>Hazırda:<br>Direktorlar Şurasının sədri – Mir Camal Hafiz oğlu Paşayev;<br>Direktorlar Şurasının üzvü – Cəlal Ələkbər oğlu Qasımov;<br>Direktorlar Şurasının üzvü – Nofəl Qəhrəman oğlu Rzayev;<br>Direktorlar Şurasının üzvü – Fərid Usad oğlu Məmmədov;<br>Direktorlar Şurasının müstəqil üzvü – Əli Abdulhüseyn oğlu Hüseynov.<br><br>İdarə Heyəti:<br>2016-cı ildə:<br>İdarə Heyətinin sədri – Mürsəl Sərdar oğlu Rüstəmov;<br>İdarə Heyəti sədrinin birinci müavini – Niyaz Rövşən oğlu İsmayılov;<br>İdarə Heyəti sədrinin müavini – Dilara Əli qızı Babayeva;<br>İdarə Heyətinin üzvü – Lalə Tahir qızı Cəfərova;<br>İdarə Heyətinin üzvü – Rüstəm Vaqif oğlu Məmmədov. |

| | |
|---|---|
| | Hazırda:<br>İdarə Heyətinin sədri – Niyaz Rövşən oğlu İsmayılov;<br>İdarə Heyəti sədrinin birinci müavini – İbrahim Hüseynqulu oğlu İbrahimov;<br>İdarə Heyəti sədrinin müavini – Dilara Əli qızı Babayeva;<br>İdarə Heyətinin üzvü – Lalə Tahir qızı Cəfərova;<br>İdarə Heyətinin üzvü – Rüstəm Vaqif oğlu Məmmədov.<br><br>Təftiş Komissiyası:<br>Təftiş Komissiyasının sədri – Vüqar Valeh oğlu Mustafayev;<br>Təftiş Komissiyasının üzvü – Nərmin Bəhram qızı İsgəndərova;<br>Təftiş Komissiyasının müstəqil üzvü – Mahir Edil oğlu Eyvazov. |
| *12. emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının (payçılarının) ayrı-ayılıqda sayı;* | 1 (bir) hüquqi şəxs |
| *13. emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərinə (paylara) malik olan şəxslər (fiziki şəxsin soyadı, adı, atasının adı; hüquqi şəxsin adı, olduğu yer və VÖEN-i), onların hər birinə məxsus olan səhmlərin sayı (səhmlərin hər növü üzrə ayrı-ayrılıqda göstərilir) və emitentin nizamnamə kapitalında payı;* | Yeganə səhmdar "PAŞA Holding" Məhdud Məsuliyyətli Cəmiyyət<br>Olduğu yer: Bakı şəhəri, Nəsimi rayonu, Neftçilər prospekti ev 153;<br>AR Ədliyyə Nazirliyi tərəfindən 01.11.2016-cı il tarixdə 0106-P267-47064 nömrə ilə dövlət qeydiyyatına alınmışdır;<br>VÖEN 1401007871;<br>7.000 (yeddi min) ədəd səhm, 40.250.000 (qırx milyon iki yüz əlli min) manat;<br>Nizamnamə kapitalındakı payı - 100%. |
| *14. nizamnamə kapitalında emitentin payı beş faizdən az olmayan hüquqi şəxslər (hüquqi şəxsin adı, olduğu yer, VÖEN-i, nizamnamə kapitalında emitentin payı);* | Yoxdur |
| *15. emitentin səhmdarlarının (payçılarının) hesabat dövrü ərzində keçirilmiş yığıncaqları barədə məlumat:* | Hesabat dövrü ərzində 19 ümumi yığıncaq keçirilib. |
| *15.1. yığıncağın keçirilmə tarixi və yeri (ünvan);* | 001-16 №-li qərar, 27.01.2016-cı il, Bakı şəhəri, Mayakovski küçəsi 15;<br>002-16 №-li qərar, 14.03.2016-cı il, Bakı şəhəri, Mayakovski küçəsi 15;<br>003-16 №-li qərar, 15.03.2016-cı il, Bakı şəhəri, Mayakovski küçəsi 15;<br>004-16 №-li qərar, 16.03.2016-cı il, Bakı şəhəri, Mayakovski küçəsi 15;<br>005-16 №-li qərar, 03.05.2016-cı il, Bakı şəhəri, Mayakovski küçəsi 15;<br>006-16 №-li qərar, 03.05.2016-cı il, Bakı şəhəri, Mayakovski küçəsi 15;<br>007-16 №-li qərar, 11.05.2016-cı il, Bakı şəhəri, Mayakovski küçəsi 15; |

| | |
|---|---|
| | 008-16 №-li qərar, 12.05.2016-cı il, Bakı şəhəri, Mayakovski küçəsi 15;<br>009-16 №-li qərar, 06.06.2016-cı il, Bakı şəhəri, Mayakovski küçəsi 15;<br>010-16 №-li qərar, 21.06.2016-cı il, Bakı şəhəri, Mayakovski küçəsi 15;<br>011-16 №-li qərar, 30.06.2016-cı il, Bakı şəhəri, Mayakovski küçəsi 15;<br>012-16 №-li qərar, 19.07.2016-cı il, Bakı şəhəri, Mayakovski küçəsi 15;<br>013-16 №-li qərar, 06.10.2016-cı il, Bakı şəhəri, Mayakovski küçəsi 15;<br>014-16 №-li qərar, 15.11.2016-cı il, Bakı şəhəri, Mayakovski küçəsi 15;<br>015-16 №-li qərar, 12.12.2016-cı il, Bakı şəhəri, Mayakovski küçəsi 15;<br>016-16 №-li qərar, 12.12.2016-cı il, Bakı şəhəri, Mayakovski küçəsi 15;<br>017-16 №-li qərar, 13.12.2016-cı il, Bakı şəhəri, Mayakovski küçəsi 15;<br>018-16 №-li qərar, 13.12.2016-cı il, Bakı şəhəri, Mayakovski küçəsi 15;<br>019-16 №-li qərar, 14.12.2016-cı il, Bakı şəhəri, Mayakovski küçəsi 15; |
| *15.2. ümumi yığıncaqda qəbul edilmiş qərarlar.* | 001-16:<br>• “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununun 37.2.7-ci maddəsinə və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin “Sığortaçıların rəhbər işçisi vəzifələrinə namizədlər və müvafiq sığorta vasitəçiliyi üzrə fəaliyyətə lisenziya almaq istəyən fiziki şəxslər üçün attestasiyanın təşkili və keçirilməsi” Qaydalarına uyğun olaraq, Lalə Tahir qızı Cəfərova və Rüstəm Vaqif oğlu Məmmədovun 14 dekabr 2015-ci il tarixində sığortaçıların rəhbər vəzifələrinə namizədlər üçün keçirilmiş test imtahanında göstərdikləri nəticə barədə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Sığorta Nəzarəti Xidmətinin 29 dekabr 2015-ci il tarixli Dx-04/03-3764 və Dx-04/03-3765 №-li məktubları əsas götürülərək həmin şəxslər 01 fevral 2016-cı il tarixindən 3 il müddətinə “PAŞA Həyat Sığorta” Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin üzvləri vəzifəsinə təyin olunmaları barədə qərar qəbul edilmişdir.<br><br>002-16:<br>• “PAŞA Həyat Sığorta” Açıq Səhmdar Cəmiyyətinin Təftiş Komissiyasının əsasnaməsinin üçüncü redaksiyada təsdiq edilməsi barədə qərar qəbul edilmişdir.<br><br>003-16:<br>• “PAŞA Həyat Sığorta” Açıq Səhmdar Cəmiyyətinin ikinci redaksiyada nizamnaməsinin təsdiq edilməsi barədə qərar qəbul edilmişdir. |

| | |
|---|---|
| | • Cəmiyyətin nizamnaməsinə uyğun olaraq qəbul edilmiş qərar əsasında əlaqəli (aidiyyəti) şəxslərlə bağlanılacaq əqdlərin imzalanması səlahiyyətinin Cəmiyyətin İdarə Heyətinin sədrinə həvalə olunması barədə qərar qəbul edilmişdir.<br>• “PAŞA Həyat Sığorta” Açıq Səhmdar Cəmiyyətinin dövlət qeydiyyatı məlumatlarında baş vermiş dəyişikliklərin qeydə alınması üçün bütün lazımi sənədlərin hazırlanması, imzalanması, müvafiq dövlət orqanına təqdim edilməsi, özündə kommersiya hüquqi şəxslərinin dövlət reyestrinə daxil edilmiş bütün reyestr məlumatlarını əks etdirən hazır sənədlərin alınması və bunlarla bağlı üçüncü şəxslərə etibarnamə verilməsi səlahiyyətlərinin “PAŞA Həyat Sığorta” Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Mürsəl Sərdar oğlu Rüstəmova həvalə olunması barədə qərar qəbul edilmişdir.<br><br>004-16:<br>• “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununun 26.1.7-ci maddəsinə əsasən “PAŞA Həyat Sığorta” ASC-nin 2016-cı il maliyyə büdcəsi təsdiq edilməsi və buna uyğun olaraq Cəmiyyətin İdarə Heyətinin sədri Mürsəl Sərdar oğlu Rüstəmova büdcədə nəzərdə tutulmuş idarəetmə xərcləri üçün mənfəət hesabından vəsait üzərində sərəncam verilməsi qərara alınmışdır.<br><br>005-16:<br>• “PAŞA Həyat Sığorta” Açıq Səhmdar Cəmiyyətinin 2015-ci maliyyə ili üzrə əldə etdiyi xalis mənfəətdən təsisçiyə 10 741 111,11 manat (on milyon yeddi yüz qırx bir min yüz on bir manat, on bir qəpik) məbləğində dividendin ayrılması barədə qərar qəbul edilmişdir.<br><br>006-16:<br>• 2015-ci maliyyə ilinin yekunlarına görə “PAŞA Həyat Sığorta” Açıq Səhmdar Cəmiyyətinin işçilərinin mükafatlandırılması üçün vəsaitin ayrılması barədə qərar qəbul edilmişdir.<br><br>007-16:<br>• “PAŞA Həyat Sığorta” Açıq Səhmdar Cəmiyyətinin Maliyyə Hesabatlarının Beynəlxalq Standartları əsasında tərtib edilmiş və kənar auditor tərəfindən təqdim |

| | |
|---|---|
| | edilmiş 2015-ci ilin nəticələri haqqında hesabatların təsdiq edilməsi və bu hesabatlarla bağlı kənar auditorun rəyinin məqbul hesab edilməsi qərara alınmışdır.<br><br>008-16:<br>• “PAŞA Həyat Sığorta” Açıq Səhmdar Cəmiyyətinin Mühasibat uçotu siyasətinin təsdiq edilməsi barədə qərar qəbul edilmişdir.<br><br>009-16:<br>• “PAŞA Həyat Sığorta” Açıq Səhmdar Cəmiyyətinin Dividendlərin hesablanması və ödənilməsi qaydalarının təsdiq edilməsi barədə qərar qəbul edilmişdir.<br><br>010-16:<br>• 2016-cı il daxil olmaqla “PAŞA Həyat Sığorta” Açıq Səhmdar Cəmiyyətinin maliyyə göstəricilərinin kənar auditor tərəfindən yoxlanılması tezliyinin ildə 2 (iki) dəfə müəyyən edilməklə yarımillik dövrlərin əhatə edilməsi barədə qərar qəbul edilmişdir.<br>• “PAŞA Həyat Sığorta” ASC-nin 2016-cı il üzrə maliyyə göstəricilərinin kənar auditor tərəfindən yoxlanılmasının Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi. şirkətinin Azərbaycan Respublikasındakı filialı tərəfindən həyata keçirilməsi barədə qərar qəbul edilmişdir.<br><br>011-16:<br>• “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanununun 75.2.-ci maddəsinə əsasən “PAŞA Həyat Sığorta” Açıq Səhmdar Cəmiyyətinin 2015-ci maliyyə ili üçün hazırlanan illik hesabatın təsdiq edilməsi barədə qərar qəbul edilmişdir.<br><br>012-16:<br>• “PAŞA Həyat Sığorta” Açıq Səhmdar Cəmiyyətinin Direktorlar Şurasının əsasnaməsinin yeni redaksiyada təsdiq edilməsi barədə qərar qəbul edilmişdir.<br>• “PAŞA Həyat Sığorta” Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin əsasnaməsinin yeni redaksiyada təsdiq edilməsi barədə qərar qəbul edilmişdir. |

| | |
|---|---|
| | 013-16:<br>• 2015-ci ilin nəticələrinə əsasən "PAŞA Həyat Sığorta" ASC-nin Təftiş Komissiyasının sədri Vüqar Valeh oğlu Mustafayevə mükafat fondunun ayrılması barədə qərar qəbul edilmişdir.<br><br>014-16:<br>• "PAŞA Həyat Sığorta" Açıq Səhmdar Cəmiyyətinin Direktorlar Şurasının və İdarə Heyətinin aşağıdakı rəhbər işçilərinin səlahiyyət müddəti 01.12.2016-cı il tarixində başa çatdığından "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununun 28.2 və 31.2-ci maddələrinin tələblərini rəhbər tutaraq, həmin şəxslər 02.12.2016-cı il tarixdən növbəti müddətə yenidən əvvəl tutduqları vəzifəyə təyin edilmələri barədə qərar qəbul edilmişdir:<br><br>• Vadim Yakovleviç Şneyer – Direktorlar Şurasının üzvü;<br>• Mürsəl Sərdar oğlu Rüstəmov – İdarə Heyətinin sədri;<br>• Niyaz Rövşən oğlu İsmayılov – İdarə Heyəti sədrinin birinci müavini.<br><br>015-16:<br>• "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununun 26.1.7-ci maddəsinə əsasən "PAŞA Həyat Sığorta" ASC-nin 2017-cı il maliyyə büdcəsinin təsdiq edilməsi barədə qərar qəbul edilmişdir.<br>• Cəmiyyətin İdarə Heyətinin sədri Mürsəl Sərdar oğlu Rüstəmova büdcədə nəzərdə tutulmuş idarəetmə xərcləri üçün mənfəət hesabından vəsait üzərində sərəncam vermək səlahiyyətinin verilməsi barədə qərar qəbul edilmişdir.<br>• İdarəetmə xərcləri hesabına 2017-ci il üzrə güzəştli sığorta ödənişləri üçün vəsaitin ayrılması barədə qərar qəbul edilmişdir.<br><br>016-16:<br>• "PAŞA Həyat Sığorta" ASC tərəfindən sığortalanmış XXX II dərəcəli əlillik qrupunun müddətli təyin edilməsi ilə əlaqədar sığorta şəhadətnaməsində qeyd edilmiş faydalanan şəxsə növbəti müayinə müddətinə qədər aylıq ödənişlər şəklində, lakin |

| | |
|---|---|
| | XXX kredit müqaviləsində qeyd olunan kreditin və ona hesablanmış faizlərin ödəniş cədvəlinə uyğun olaraq aylıq ödəniş məbləğindən çox olmamaq şərtilə sığorta ödənişinin verilməsi barədə qərar qəbul edilmişdir.<br><br>017-16:<br>• 2016-cı ilin maliyyə hesabatlarının düzgünlüyünün auditi məqsədilə "G and A Audit" Məhdud Məsuliyyətli Cəmiyyətinin "PAŞA Həyat Sığorta" Açıq Səhmdar Cəmiyyətinin müstəqil auditoru təyin edilməsi barədə qərar qəbul edimişdir.<br><br>018-16:<br>• "PAŞA Həyat Sığorta" ASC-nin təşkilati strukturunda dəyişikliklərin edilməsi barədə qərar qəbul edilmişdir:<br><br>• İdarə Heyətinin sədrinə tabe olan Baş Risk İnzibatçısı adlı yeni vəzifə müəyyən edilsin.<br>• Müstəqil şöbələr olan "Risklərin idarə edilməsi" və "Aktuariat" şöbələri ləğv edilsin və əvəzində "Risklərin idarə edilməsi" və "Aktuariat" departamentləri yaradılsın.<br>• "Məsul aktuari" vəzifəsi Direktorlar Şurasına tabe olmaqla ayrıca formalaşdırılsın.<br>• "Risklərin idarə edilməsi" departamentinin tərkibinə daxil olan "Bazar riskləri" və "Əməliyyat riskləri" adlı yeni şöbələr yaradılsın.<br>• "Aktuariat" departamentinin tərkibinə daxil olan "Qiymətqoyma" və "Ehtiyatların hesablanması" adlı yeni şöbələr yaradılsın.<br>• "Maliyyə" departamentinin tərkibinə daxil olan "Hesabatlılıq və investisiyalar" şöbəsi ləğv edilsin və əvəzində "Hesabatlılıq" və "İnvestisiyalar" şöbələri yaradılsın.<br>• "Strateji inkişaf və marketinq" departamentinin tərkibinə daxil olan "Çağrı Mərkəzi" şöbəsinin adı dəyişdirilsin və "Əlaqə mərkəzi" şöbəsi adlandırılsın.<br>• Aparılmış dəyişiklikləri nəzərə alaraq 05 yanvar 2017-ci il tarixindən qüvvəyə minməklə "PAŞA Həyat Sığorta" ASC-nin yeni təşkilati strukturun təsdiq edilməsi barədə qərar qəbul edilmişdir. |

| | |
|---|---|
| | 019-16:<br>• “PAŞA Həyat Sığorta” ASC-nin “Direktorlar Şurasının üzvlərinə tətbiq edilən imtiyazlar barədə Qaydalar”ın təsdiq edilməsi barədə qərar qəbul edilmişdir. |
| *16. emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat (investisiya qiymətli kağızların hər buraxılışı ayrı-ayrılıqda göstərilir):* | 1. 22.12.2010-cu il, qeydiyyat nömrəsi – AZ100100920, 7000 adi səhm, sənədsiz adlı qiymətli kağız, nominal dəyəri – 1000 manat;<br>2. 12.03.2012-ci il, qeydiyyat nömrəsi – AZ100200920, 7000 adi səhm, sənədsiz adlı qiymətli kağız, nominal dəyəri – 2150 manat;<br>3. 31.05.2013-cu il, qeydiyyat nömrəsi – AZ1003009201, 7000 adi səhm, sənədsiz adlı qiymətli kağız, nominal dəyəri – 3600 manat;<br>4. 28.02.2014-cu il, qeydiyyat nömrəsi – AZ1004009200, 7000 adi səhm, sənədsiz adlı qiymətli kağız, nominal dəyəri – 5750 manat; |
| *16.1. investisiya qiymətli kağızın növü və forması;* | Sənədsiz adi adlı səhm |
| *16.2. investisiya qiymətli kağızlar buraxılışının dövlət qeydiyyat nömrəsi və qeydiyyat tarixi;* | 5.750 (beş min yeddi yüz əlli) manat |
| *16.3. investisiya qiymətli kağızların miqdarı və nominal dəyəri;* | 7.000 (yeddi min) ədəd səhm |
| *16.4. investisiya qiymətli kağızlar buraxılışının məcmu nominal dəyəri;* | 40.250.000 (qırx milyon iki yüz əlli min) manat |
| *16.5. hesabat ili ərzində emitent tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat (hesabat ilində səhmlərin hər növü üzrə ödənilmiş dividendlərin məbləği göstərilir);* | 2015-ci ilin xalis mənfəəti hesabına yeganə səhmdara 10 741 111,11 (on milyon yeddi yüz qırx bir min yüz on bir manat, on bir qəpik) manat məbləğində dividend ödənilmişdir. |
| *16.6. faizli istiqrazlar buraxılışı haqqında məlumatda - istiqrazlar üzrə gəlirliyin illik faiz dərəcəsi;* | Yoxdur |
| *16.7. investisiya qiymətli kağızların yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer (olduqda).* | Qapalı yerləşdirilib |

| | |
|---|---|
| *17. emitent tərəfindən bağlanılmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumatlar:* | - |
| *17.1. əqdin məbləği;* | - |
| *17.2. hesabat tarixinə əqdin ödənilməmiş hissəsi.* | - |
| *18. emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanılmış əqdlər barədə məlumatlar:* | - |
| *18.1. bağlanılmış əqdin mahiyyəti, tarixi və məbləği;* | - |
| *18.2. aidiyyəti şəxs barədə məlumat və emitentlə aidiyyət əlaqəsi.* | - |
| *19. illik hesabatın təsdiq edildiyi ümumi yığıncağın tarixi;* | 29.06.2017 |
| *20. hesabatın açıqlanma mənbəyi haqqında məlumat.* | “Respublika” Qəzeti |